# İstanbulda Behbud xan Cavanşirin abidəsi

## *Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər naziri işləmiş Behbud xan Cavanşirin xatirəsinə ucaldılan abidənin açılış mərasimi*




**Azərbaycanın İstanbuldakı baş konsulluğunun təşkilatçılığı, İstanbul Valiliyi və İstanbul Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə hazırlanan xatirə abidəsi şəhərin tarixi bölgələrindən olan Beyoğlu rayonunda, Behbud xan Cavanşirin erməni terrorçu tərəfindən qətlə yetirildiyi "Pera Palas" otelinin qarşısında yerləşdirilib.**

Açılış mərasimində Beyoğlu Bələdiyyəsinin və konsulluğun əməkdaşları, diplomatlar, rəsmi şəxslər, ziyalılar, Türkiyədə fəaliyyət göstərən Azərbaycanın dövlət təşkilatlarının, KİV-lərin və QHT-lərin nümayəndələri, bu şəhərdə yaşayan həmyerlilərimiz və tələbələr iştirak ediblər.

Azərbaycanın İstanbuldakı baş konsulu Məsim Hacıyev tədbirdə çıxış edərək abidənin hazırlanmasına və məhz Behbud xan Cavanşirin qətlə yetirildiyi ərazidə yerləşdirilməsinə göstərilən köməyə görə Türkiyə Xarici İşlər Nazirliyinə, İstanbul Valiliyinə, Beyoğlu Bələdiyyəsinə və "SOCAR Turkey Enerji A.Ş."yə təşəkkürünü bildirib.

Baş konsul qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirələrinin əbədiləşdirilməsi məqsədilə 2018-ci ildə Sərəncam imzalayıb. Konsulluq tərəfindən Sərəncamın icrası istiqamətində mütəmadi olaraq işlər aparılır. Bu məqsədlə ilk olaraq AXC-nin qurucularının İstanbulda yerləşən məzarları təmir olunub və 2018-ci ildə məzarların yerləşdiyi qəbiristanlıqda onların xatirəsinə abidə ucaldılıb.

Behbud xan Cavanşirin xatirə abidəsinin Beyoğlu rayonunda yerləşdirilməsinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarının bir nümunəsi olduğunu deyən M.Hacıyev bildirib: "Abidənin yerləşdiyi Beyoğlu rayonu İstanbulun ən çox ziyarətçi qəbul edən rayonlarındandır. Belə ki, buranı gün ərzində 2 milyondan çox insan ziyarət edir. Həmin insanlar hər dəfə bu ərazidən keçərkən bir daha erməni terrorizminin şahidi olacaqlar".

"Azərbaycan xalqının yaşadığı acı bizim acımızdır", - deyən Beyoğlu Bələdiyyəsinin sədri Haydar Ali Yıldız bildirib ki, "Başda Qarabağ olmaqla, Azərbaycanın tarixində yaşananları xatırlamaq və unutmamaq çox vacibdir. Biz bununla yaşananların unudulmaması, azərbaycanlı qardaşlarımızın tarixinə düşmüş qanlı səhifələrin, qətlə yetirilən dövlət xadimlərinin və diplomatların xatirələrinin əbədiləşdirilməsi istiqamətində üzərimizə düşən vəzifəni yerinə yetirdik. Bu, eyni zamanda, qardaşımıza qarşı törədilən hansısa hadisənin bizə də təsir etməsinin bir nümunəsidir".

Qeyd edək ki, Behbud xan Azad xan oğlu Cavanşir 1877-ci ildə Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində doğulub. Soyadından da göründüyü kimi, o, Şuşanın təməlini qoyan Pənahəli xanın nəslindəndir. 13 yaşında Tiflisdə alman dili təmayüllü Tiflis Real Məktəbinə daxil olub. 1902-1907-ci illərdə Almaniyada Flaybərq Dağ-Mədən Akademiyasında təhsil alıb və daha sonra ingilis dilini öyrənmək üçün Londonda 1 il kurs keçib. 1907-ci ildə Vətənə dönüb və Şibayevin neft mədənlərində baş mühəndis, iri neft sənayesi firmalarının direktoru kimi çalışıb.



Behbud xan Cavanşir dövrünün gözüaçıq, tərəqqipərvər, imkanlı şəxslərindən olub. Qarabağda yolların abadlaşdırılması onun adıyla bağlıdır. Qarabağa ilk avtomobili də Behbud xan gətirib. Almaniyadan yumşaq buğda növlərini öz torpağında əkib və yaxşı məhsul götürüb. Fermer təsərrüfatı yaradıb. Damazlıq mal-qara saxlayıb. Behbud xan alman, ingilis, fransız, rus, gürcü və erməni dillərini mükəmməl bilib.

1918-ci ilin iyunun 17-də Fətəli xan Xoyskinin yaratdığı hökumətdə Daxili İşlər naziri vəzifəsini tutan Behbud xan Cavanşirin Azərbaycanda bu sistemin formalaşmasında xidmətləri danılmazdır. O, eyni zamanda, ölkənin Ticarət və Sənaye naziri kimi də fəaliyyət göstərib.

1921-ci il iyulun 18-də saat 23 radələrində İstanbulun "Pera-Palas" otelinin önündə Daşnaksütyun partiyasının üzvü və Ermənistan ordusunun keçmiş əsgəri Misak Torlakyan Behbud xan Cavanşiri üç güllə ilə qətlə yetirir və həbs olunur. Həmin vaxt İstanbul ingilis işğalı altında olduğundan cani cinayət hadisəsindən 20 gün sonra ingilis hərbi tribunalında mühakimə edilir. Prokuror qatil üçün ölüm cəzası istəyir, lakin o, 24 saat içərisində Türkiyədən uzaqlaşdırılır. Yerinə gələn prokuror isə müttəhimə bəraət istəyir və qatil Torlakyan gecə ikən qaçırılır.

Misak Torlakyan "Daşnaksütyun" partiyasının üzvü idi və Azərbaycanda 1918-ci il mart soyqırımında xüsusi fəallıq göstərmişdi.

Qeyd edək ki, Bəyoğlu səmti ermənilərin kompakt yaşadığı yerlərdən biridir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**